2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində
Mərkəzi Seçki Komissiyasına daxil olmuş 12 yanvar 2025-ci il tarixli 4 saylı
müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində 45 saylı Sumqayıt dördüncü seçki dairəsindən Sumqayıt bələdiyyəsi üzrə namizədliyi Müasir Musavat Partiyası tərəfindən irəli sürülmüş İbrahimov Elnur Fəxrəddin oğlu 12 yanvar 2025-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) müraciət edərək namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 6 yanvar 2025-ci il tarixli 03/10 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, o Komissiyanın iclasında iştirak etmişdir.

E.F.İbrahimov müraciətində göstərmişdir ki, 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Sumqayıt bələdiyyəsi üzrə namizədliyi Müasir Musavat Partiyası tərəfindən irəli sürülmüş, imza vərəqələrini və digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, lakin əmlakı barədə təqdim etdiyi məlumat düzgün hesab edilmədiyinə görə dairə seçki komissiyasının mübahisələndirdiyi qərarı ilə onun namizəd kimi qeydə alınmasından imtina edilmişdir. E.F.İbrahimov müraciətində iddia etmişdir ki, namizədliyin qeydə alınması ilə bağlı sənədlər yoxlanılarkən dairə seçki komissiyasına dəvət olunmamış, seçki sənədlərində aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün ona şərait yaradılmamış, dairə seçki komissiyası iclasının protokolu tərtib edilməmişdir. O şikayətində, həmçinin namizədliyinin qeydə alınmasından imtinanın əsası kimi göstərilən bir minik avtomobilin etibarnamə ilə özgəninkiləşdirildiyini də iddia etmişdir.

Dairə seçki komissiyası E.F.İbrahimovu namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 6 yanvar 2025-ci il tarixli 03/10 saylı qərarını onunla əsaslandırmışdır ki, namizəd mülkiyyət hüququ əsasında ona məxsus olan minik avtomobilini komissiyaya təqdim etdiyi əmlak barədə məlumatda göstərməmişdir.

Araşdırma prosesində E.F.İbrahimovun seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək götürülmüş, mübahisələndirilən hissədə təkrar olaraq yoxlanılması üçün Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupuna təqdim edilmişdir. İşçi qrupu tərəfindən verilmiş 13 yanvar 2025-ci il tarixli rəy və rəyə əlavə edilmiş digər təsdiqedici sənədlərdən görünür ki, namizəd E.F.İbrahimovun mülkiyyətində bir ədəd minik avtomobili mövcuddur. Bu hal həmçinin ərizəçinin özü tərəfindən müraciətə əlavə edilmiş digər təsdiqedici sənədlə də öz təsdiqini tapır. Bu səbəbdən dairə seçki komissiyası düzgün nəticəyə gələrək qeyd edilən əsasla E.F.İbrahimovun namizədliyinin qeydə alınmasından imtina edilməsinə dair qərar qəbul etmişdir.

Namizədliyin qeydə alınması ilə bağlı seçki sənədləri yoxlanılarkən dairə seçki komissiyasına dəvət olunmadığına dair ərizəçinin iddiaları araşdırılarkən dairə seçki komissiyasının sədrindən, katiblərindən və həmin dairə seçki komissiyası nəzdində yaradılmış işçi qrupunun rəhbərindən alınan izahatlardan müəyyən edilir ki, imza vərəqələri və digər zəruri seçki sənədləri yoxlanılarkən maraqlı tərəfə, E.F.İbrahimova məlumat verilmiş, həmçinin o dairə seçki komissiyasının iclasına dəvət olunmuşdur. O, araşdırmada iştirak etmiş, Bakı şəhərində işinin olmasını bildirərək dəvət edildiyi dairə seçki komissiyasının iclasında iştirak etməkdən imtina etmişdir.

Beləliklə, namizəd E.F.İbrahimov tərəfindən dairə seçki komissiyasına təqdim edilən əmlak barədə məlumatda göstərilməyən bir minik avtomobili hal-hazırda onun mülkiyyətində olduğundan E.F.İbrahimovun namizəd kimi qeydə alınmasından imtinaya dair 45 saylı Sumqayıt dördüncü seçki dairəsi dairə seçki komissiyasının 6 yanvar 2025-ci il tarixli 03/10 saylı Qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, 45 saylı Sumqayıt dördüncü seçki dairəsi dairə seçki komissiyasının bütün iclasları Seçki Məcəlləsinin 19.13-cü maddəsinə uyğun olaraq protokollaşdırılır.

Göstərilənlərə əsasən namizəd E.F.İbrahimovun 12 yanvar 2025-ci il tarixli 4 saylı şikayəti əsassız olduğundan təmin edilməməli, 45 saylı Sumqayıt dördüncü seçki dairəsi dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda qeyd olunanları əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 216.1-ci maddələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində 45 saylı Sumqayıt dördüncü seçki dairəsindən Sumqayıt bələdiyyəsi üzrə namizədliyi Müasir Musavat Partiyası tərəfindən irəli sürülmüş İbrahimov Elnur Fəxrəddin oğlunun 12 yanvar 2025-ci il tarixli 4 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin seçki dairəsi dairə seçki komissiyasının 6 yanvar 2025-ci il tarixli 03/10 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov